**AZƏRBAYCAN RESPUBLİKASI**

# Protokola tərəf çıxdıqdan sonra
# SU VƏ SAĞLAMLIQ PROTOKOLU
# çərçivəsində Azərbaycanda həyata keçirilən fəaliyyət haqqında


**Dr.Leyla Tağızadə - layihənin rəhbəri**

**Respublika Gigiyena və Epidemiologiya Mərkəzi**


**29 sentyabr 2015-ci il**

**Bakı**

**BMT tərəfindən bəşəriyyət qarşısında qoyulmuş Minilliyin İnkişaf Məqsədlərinə nail olması ilə əlaqədar, Azərbaycan Höküməti tərəfindən müvafiq tədbirlər həyata keçirilir.**

- **"Transsərhəd su axınları və beynəlxalq göllərin qorunması və istifadəsi" Konvensiyasını 2000-ci ildə ratifikasiya etmiş və 2002-ci ildə onun Su və Sağlamlıq Protokoluna tərəfdaş çıxmışdır.**

- **Hazırda ölkəmizdə Su və Sağlamlıq Protokolu çərçivəsində, Rəyasət Komitəsinin dəstəyi ilə Məqsədli Göstəricilərin hazırlanması prosessinə start verilmişdir.**

**Azərbaycan Respublikası Su və Sağlamlıq Protokoluna qoşulduğu vaxtdan bu günədək Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsinə imkan yaradan bəzi konkret addımlar atılıb:**

- **2003-cü ildə Azərbaycan Respublikasının Höküməti tərəfindən ekoloji kontekstə uyğun olaraq «Ölkənin dayanaqlı sosial-iqtisadi inkişafına dair Milli Proqram»ı qəbul olundu. Həmin Proqramın bir hissəsi bütövlükdə su siyasətinə həsr olunub və bu Proqramın icrasının nəticələrinə əsasən ölkənin hər bir sakini 2015-ci ilə qədər təhlükəsiz və keyfiyətli içməli su ilə təmin olunacağı planlaşdırılır.**

- **İqtisadiyyatın bütün sahələri üzrə sürətli və davamlı inkişafı Azərbaycan Dövlətinin fəaliyyətində mühüm yer tutur. Dövlətin su siyasətinin məqsədi əhalinin ehtiyaclarını ödəməklə yanaşı ətraf mühitin qorunmasını və yaşayış üçün yararlığını təmin etməkdir. Bununla bərabər, əsas prinsiplərdən biri də gələcək nəsillərin və digər dövlətlərin yararlı ətraf mühitə dair hüquqlarının qorunmasından ibarətdir.**

**Davamlı İnkişafa bir sıra milli və dövlət proqramlarının icrası ilə nail olunur. Milli Proqramlar qəbul edilən zaman, beynəlxalq təşkilatların təcrübəsi və beynəlxalq konvensiyalar tərəfindən qoyulmuş tələblər nəzərə alınır. Ölkədə mövcud yaşayış şəraitinə əsaslanaraq, su sahəsinə dair müvafiq hüquqi-normativ və normativ-texniki xarakterli aktlar qəbul edilib. Milli Proqramları qəbul etməzdən əvvəl layihələr ictimaiyətin, o cümlədən qeyri-dövlət təşkilatların müzakirəsinə çıxarılır**

**Proqramların əsas məqsədləri aşağıdakılardır:**

- **ölkə iqtisadiyyatının diversifikasiyası və dünya iqtisadiyyatı sistemi ilə birləşməsi;**
- **növbəti illərdə infrastrukturun təkmilləşməsi, kommunal xidmətlərin və əhalinin həyat tərzinin yüksəlməsi.**

**Dövlət və sahəvi proqramlarda qeyd olunmuş nəticələr, həmçinin su sektorunda olan problemlər ilə bağlı beynəlxalq və milli layihələrdə nəzərdə tutulmuş məqsədlər, aşağıda qeyd edilənlərin əldə olunmasına kömək edir:**

- **su sahəsində milli və yerli məqsədli göstəricilərin müəyyənləşdirilməsinə;**

- **o cümlədən, bu göstəricilər bütün əhalini içməli su və sanitariya ilə təmin olunmasına dair müvafiq tədbirlərin inkişafına təkan verməsidir.**

**Müstəqillik illərində Azərbaycanda müxtəlif sahələrdə çalışan ictimai birliklər, fondlar və digər qeyri-hökümət təşkilatlarından ibarət qeyri-hökümət sektoru yaradılıb.**

**Ölkədə «Azərbaycan Respublikası qeyri-hökümət təşkilatlarının dövlət dəstək Konsepsiya»sı təsdiq edilib və su sektorunda olan problemlər haqqında ictimaiyyətin məlumatalndırılması təmin olunur:**

- **su resurslarının qorunması üzrə hüquqi və qanuni aspektləri müxtəlif vasitələrlə izah edir (bülleten, bukletlər, mətbuatda çıxışlar və treninqlər).**

**Həmçinin, ekoloji sahədə qəbul olunmuş beynəlxalq konvensiyaların şərtlərinin yerinə yetirilməsi üzrə müvafiq tərəflərin nümayəndələrindən, o cümlədən, qeyri-dövlət təşkilatlarının iştrakı ilə işçi qrupları yaradılıb.**

**Azərbaycanın ümumilikdə 2020-ci ilə kimi prioritet istiqamətlərini müəyyən edən "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası hazırlanmışdır.**

**Ekologiya və Təbii Sərvətlər və Səhiyyə Nazirlikləri birgə Strateji Fəaliyyət Planları hazırlanmışdır. Bu planda ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması üçün iqtisadi və insan potensiallarının və müasir üsullarla idarə edilməsi, indiki və gələcək nəsillərin rifahının yaxşılaşdırılmasını təmin edən, stimullaşdıran iqtisadi modellərin texnologiyaların istifadəsi, insan həyat fəaliyyətini təmin edə biləcək ekosistemlərinin əsas istiqamətləri üzrə məqsədlərə çatmaq vəzifə olaraq qarşıya qoyulmuşdur. Həmçinin, planlaşdırılan hədəflərə nail olmaq məqsədilə qısa müddətli və uzun müddətli prinsiplər qəbul edilmişdir. Belə ki, Səhiyyə Nazirliyi tərəfindən yoluxucu xəstəliklərin profilkatikası məqsədilə profilaktik tədbirlərin gücləndirilməsi işi qısa müddətli plana daxil edilmişdir. 2015-2020-ci illərdə müvafiq tədbirlərin həyata keçirilməsi ilə sanitariya-epidemioloji xidmətin inkişafına nail olunacaqdır.**

## SU VƏ SAĞLAMLIQ PROTOKOLUNUN
## həyata keçirilməsində
## əldə olunmuş nailiyyətlər və problemlər

- **2015-ci ilin sonuna qədər kiçik şəhərlərdə və rayon yerlərində yaşayan əhalinin davamlı təhlükəsiz su və təmizləyici qurğularla təmin olunmasına dair «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun səviyyəsini azaldılması və davamlı inkişaf»ı üzrə Dövlət Proqramı çərçivəsində milli göstəricilər müəyyən edilmişdir.**
- **Su və su təsərrüfatı obyektlərinin idarəçiliyi, nizama salınması, təhlükəsizliyini və qorunmasının təmin edilməsiylə bağlı bütün məsələlər üzrə müvafiq dövlət orqanları ilə razılaşdırılaraq Nazirlər Kabineti tərəfindən təsdiqlənir.**
- **Azərbaycanın iqtisadi inkişafı son illərdə su istehlakçılarının hüquqlarını qorunması və ekoloji problemlər ilə bağlı məsələlərin həlli istiqamətində önəmli prioritet təşkil edir. Son 7-8 il ərzində ölkədə ekoloji vəziyyətin yaxşılaşdırmasına yönəldilmiş dövlət proqramları, həmçinin, iri həcmdə maliyyə xərclərini tələb edən layihələr həyata keçirilir.**

Kür və Araz çaylarının sahillərində yaşayan əhalinin təhlükəsiz içməli su ilə təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinin «Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə əlaqədar əlavə tədbirlər haqqında» sərəncamına əsasən aşağıda qeyd ilunan tədbirlər həyata keçirilib:

- 22 inzibati rayonun 320 qəsəbəsində 530 min əhalinin keyfiyyətli içməli su ilə təmin edən modul tipli su təmizləyici qurğular quraşdırılıb;

- hal hazırda həmin qəsəbələrin hər bir sakini gün ərzində ÜST-ün tövsiyyələrinə əsasən 20-60 litr içməli su ilə təmin olunur.

- **Dövlət tərəfindən su təminatının yaxşılaşdırılması məqsədi ilə qəbul olunmuş layihələrin məqsədi su təmizləyici qurğuların və su kəmərlərinin vaxtında istismara verilməsidir.**
- **Əhalinin su və kanalizasiya xidmətləri ilə təmin olunması Milli layihə çərçivəsində Azərbaycan dövlətinin və Dünya Bankının maliyyə dəstəyi ilə "Azərsu" və "Azərbaycan Meleorasiya və Su Təsərrüfatı " ASC-nin və Ərazilərin bərpa və yenidənqurulması üzrə Dövlət Agentliyi tərəfindən tərəfindən 46 şəhər və rayon mərkəzlərində davamlı və təhlükəsiz su və kanalizasiya sistemlərinin təmin edilməsi ilə bağlı uğurlu işlər keçirilmişdir.**
- **Respublikanın paytaxtında içməli suyun təkrar çirklənməsinin qarşısının alınması məqsədi ilə xırda su hovuzları ləğv edilmiş və yeni su təchizatı sistemlərində fasiləsiz su təminatı ilə təchiz olunmuşdur.**
- **Dövlət tərəfindən qoyulan məqsədlərə nail olmaq üçün Böyük Bakı şəhərinin su təminatı üzrə Baş Planının işlənməsi başlanılmışdır.**

## SU VƏ SAĞLAMLIQ PROTOKOLUNUN
## həyata keçirilməsində
## əldə olunmuş nailiyyətlər və problemlər

**Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda "Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi üzrə Milli Plan"ın (fəaliyyət planının) hazırlanması nəzərdə tutulmuşdur.**

**Həmçinin iki ayrı-ayrı layihə üzrə beynəlxalq ekspertlər tərəfindən «Azərbaycan Respublikasının Su Strategiyası»nı özündə ehtiva edən hesabatlar hazırlanmışdır. Bu hesabatlar əsasında «AZƏRBAYCAN RESPUBLIKASININ 2016-2035- Cİ ILLƏRDƏ SU EHTIYATLARININ INTEQRASIYALI IDARƏ EDILMƏSI ÜZRƏ SU STRATEGİYASI»nın hazırlanması planlaşdırılır.**

**Abşeron yarmadasında məskunlaşan və ölkə əhalisinin ümumi sayının 38,8%-ni təşkil edən sakinlərini verilən suyun keyfiyyətlinin və həcminin çoxalması əsas göstəricilərindən biridir.**

**Bu göstəricinin əldə olunması üçün 2010-cu ildə "Oğuz-Qəbələ-Bakı" su kəməri istifadəyə verilmişdir:**

- **Kəmərin uzunluğu – 263 km;**
- **Kəmərin sərfi – 5$m^3$/san;**
- **Mənbəyi – Oğuz rayonunun dağ hissəsində qazılan artezian və subarteziyan quyuları.**

**«Respublika regionlarının iqtisadi sosial inkişafının yaxşılaşdırılması»üzrə (2008-2015) Milli Proqramın müvafiq olaraq rayon tipli qəsəbələrin təhlükəsiz su ilə təmin olunması üzrə göstəricilərin əldə olunması üçün kompleks tədbirlər həyata keçirilir:**

- **bir sıra şəhərlərdə (Şəki, Gəncə və s.) su kəmərlərinin şəbəkəsi və suyun təmizləmə texnologiyası tamamilə yenilənib;**
- **respublikanın ümumtəhsil məktəblərində oxuyan şagirdlər üçün içməli su təminatına xüsusi diqqət yetirilib. Belə ki, 2003-2012-ci illər ərzində respublikada 500 min məktəblini əhatə edən 2457 yeni məktəb (ümumi sayının 52%-i) binası tikilib.**

**“2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”na su təminatında kiçik həcmli sistemlərin inkişafı da daxil edilmişdir:**

- **bu Proqram, kənd əhalisinin yaxşılaşdırılmış su mənbələri ilə təmin edilməsində məqsədli göstəricilərə nail olunmasını təmin edir;**
- **su təminatının bütün istiqamətlərini əhatə edən az həcmli su təminatı sistemlərində risklərin qiymətləndirilməsi məqsədi ilə Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən laborator monitorinq işlərinin aparılması təşkil olunur;**
- **ölkənin 39 regionun 2180 kəndlərində əhali tərəfindən içməli su kimi istifadə olunan 3459 su mənbələrində tətqiqat işləri davam etdirilir.**

- **götürülmüş su nümunələrinin 45,6 %-i sanitar-kimyəvi, 38,3 %-i isə mikrobioloji göstəricilər qüvvədə olan standartlara cavab verməyib;**
- **bu ərazilərdə suyun keyfiyyətinin artırılması məqsədi ilə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin mütəxəssisləri tərəfindən optimal şərtlərin yaradılması üçün təkliflər işlənib hazırlanıb.**
- **Görülən tədbirlər tibbi-demoqrafik və səhiyyə göstəricilərinin yaxşılaşdırılmasına zəmin yaratmışdır. Belə ki, ümumi doğum göstəricisi əhalinin hər min nəfərinə 18.6, ümumi ölüm isə 5.8 təşkil etmişdir. Təbii artım əhalinin hər min nəfərinə 12.8 olmuşdur ki, bu da Avropa ölkələri arasında ən yüksək göstəricilərdən biridir.**
- **Əhali üçün daim təhlükə yaradan malyariya xəstəliyinə qarşı aparılmış geniş miqyaslı əksepidemik tədbirlər epidemioloji sabitliyə nail olunmasına imkan vermiş və ilk dəfə olaraq son iki ildə yerlı yoluxma halları qeydə alınmamışdır.**

# SU VƏ SAĞLAMLIQ PROTOKOLUNUN
## həyata keçirilməsində
## əldə olunmuş nailiyyətlər və problemlər

- **su ilə yayılan yoluxucu xəstəliklərin göstəricilərində çoxillik müsbət azalma dinamikası qeyd olunur. Son 40 il ərzində vəba xəstəliyi, 10 ildən çox qarın yatalağı xəstəliyi qeydə alınmayıb, hepatit A, dizenteriya, lyamlioz xəstəliklərinin səviyyəsi aşağı enmişdir.**

- **Beləliklə, respublikada iqtisadiyyatın intensiv inkişaf fonunda su təchizatı və çirkab suların kənarlaşdırılma sistemlərinin yeniləşdirilməsi, bu da öz növbəsində, həyat tərzinin və insanların sağlamlıq göstəricilərinin dinamik inkişafına təsir edərək, Su və Sağlamlıq Protololunun əsas məqsədlərinə nail olunmasını təmin edir.**

# SU VƏ SAĞLAMLIQ PROTOKOLUNUN
## həyata keçirilməsində əldə olunmuş nailiyyətlər və problemlər

**Protokolun həyata keçirilməsində irəliləyişlərlə yanaşı ölkədə bir sıra öz həllini tapmayan bəzi məsələlər də qalmaqdadır və bu problemlərin həlli üçün məqsədli göstəricilərin Protokolun tələblərinə əsasən müəyyən olunmasını məqsədəuyğun hesab edirik.**

**Su sahəsində mövcud problemlər:**

- **Su strategiyası və su siyasəti haqqında rəhbəredici sənədlərin olmaması;**
- **Su ehtiyyatlarının inteqrasiyalı idarə olunmaması;**
- **Suyun təkrar istifadə olunma üzrə stimullaşdırma tədbirlərinin zəif həyata keçirilməsi;**
- **İqlim dəyişikliyinə su ehtiyatlarının adaptasiya tədbirlərinin hazırlanmaması;**
- **su ehtiyyatlarına qənaətcil yanaşma üzrə əhalinin məlumatlandırma təbliğatının kifayət qədər olmadığı;**
- **Struktur laboratoriyaların müasir avadanlıq və reaktivlərlə kifayət qədər təmin olunmaması;**

**Həlli istiqamətlər:**

- **ÜST-nın tələbləri əsasında içməli suyun keyfiyyətinə dair yeni standartlarının işlənib hazırlanması;**
- **ekstremal hava şəraitində su ehtiyyatlarının idarə olunması üzrə adaptasiya tədbirlərnə dair Milli strategiyanın işlənib hazırlanması;**
- **Su və Sağlamlıq Protokol üzrə iştirak edən bütün nazirliklərin və digər müvafiq qurumlarının kadr potensialının hazırlanması.**

**Təqdim olunmuş məlumatlardan aydın olur ki, ölkəmizdə Su və Sağlamlıq Protokolundan irəli gələn bütün məsələlərin həlli üçün lazımi şərait vardır və bu sahədə Məqsədli Göstəricilərinin və müvafiq indikatorların müəyyən olunduqdan sonra, Hökümətin təsdiqinə təqdim olunması üzrə işlərin gücləndirilməsinə zərurət vardir.**

# Diqqətinizə görə minnətdaram!

**Dr.Leyla Tağızadə**

**E-mail: leylatagizadeh@yahoo.com**